# Gülgün çöhrəli, Təbriz həsrətli şairimiz

**Otaylı-butaylı Azərbaycanın ünlü qadın şairlərindən olan Mədinə Gülgün özünün həm zəriflik poeziyası, həm də Cənub həsrətli şeirləri ilə oxucu qəlblərini fəth etmiş qələm sahiblərindən idi. Əməkdar incəsənət xadimi fəxri adına, medallara layiq görülmüşdü. Ömür-gün dostu, "Şərəf" ordenli Xalq şairimiz Balaş Azəroğlu ilə həyat və sənət yollarında onillər boyunca qoşa addımlamışdı.**



Hər ikisi Bakıda doğulmuş Mədinə xanımın da, Balaş Azəroğlunun da ailələri 1938-ci ildə Cənubi Azərbaycanın Ərdəbil şəhərinə köçüblər. Balaş orada milli azadlıq hərəkatına qoşulub. Azərbaycan Demokratik Firqəsinin fəallarından olub. Mədinə xanımsa yeniyetmə çağlarından əməyə qatlaşıb və xalqımızın milli hüquqlarının pozulmasına şahid olub. Təbriz Dram Teatrında çalışıb, "Azərbaycan" qəzetinin xüsusi müxbiri vəzifəsində işləyib. İnqilab carçısı olan cütlük ailə qurduqdan sonra sonadək Cənubun siyasi baharı uğrunda qələm çalıb.

Gülüzlü, güləyən, şən mənası verən "Gülgün" ədəbi təxəllüsünü qəbul etmiş Mədinə Ələkbərzadə 65 illik ömründə Cənub həsrəti üzündən bir dəfə ürəkdən gülə bilməsə də, gül ətirli yaradıcılığı ilə oxucularına əsl bahar ovqatı aşılayıb. Elə "Təbrizin baharı" adlı ilk şeir kitabı 1950-ci ildə işıq üzü görüb. Əlbəttə, həmin ərəfə xalqın azadlıq və milli istiqlaliyyət uğrunda apardığı mübarizə, həmçinin İkinci dünya müharibəsi illərinə təsadüf etdiyinə görə, Mədinə Gülgünün ilk şeirlərində mübariz ruhun da olması təbii idi. Könül sazının ötdüyü nəğmələrin baş ahəngini doğma Vətənə, millətə övlad məhəbbəti, oxucularını ağ günlərə və qurtuluş uğrunda döyüşlərə çağırış nidalı motivlər təşkil edirdi.

Onun "Yadigar üzük", "Pərvanə", "Günlər və xatirələr", "Firidun", "Dünyamızın sabahı", "Arzu da bir ömürdür", "Ömrün payız dayanacağı", "Mən bu ömrü yaşadım", "Dünya şirin dünyadır" kimi kitabları maraqla qarşılanıb. "Yora bilməz yollar məni" deyib və açıqlayıb ki, "Könlümü ümidlər yaşadır". Onun lirik şeirlərinə həzin mahnılar da bəstələnib.

Mədinə Gülgün 17 fevral 1991-ci ildə Bakıda vəfat edib, Fəxri Xiyabanda dəfn olunub. Amma nə qədər ki, ürəyimizdə, yaddaşımızda bu ad var, ünlü şairin gülgün çöhrəsi nur saçacaq və səsini ətirli küləklərə qataraq yaşayacaq.

**Əli NƏCƏFXANLI, "Xalq qəzeti"**

*Qartal oylağısan, şahin yuvası,*
*Sən ey Səttarxanlar məkanı, Təbriz!*
*Olubsan aslanlar, şirlər ovası,*
*Tutubdur şöhrətin cahanı Təbriz!*

*İntiqam şüarın salma dilindən,*
*Ayrılma heç zaman dönməz elindən,*
*Qalsın bu söz sənə yadigar məndən,*
*Ol məzlum köməyi, həyanı Təbriz!*

*Könlümdə bar verir böyük arzular,*
*Çatsın xoş günlərə qoy tamarzılar.*
*Tarixlərdə qızıl xətlər yazılar:*
*Oldun azadlığın nişanı Təbriz!*

***

*Bir gün də ümidsiz yaşamadım mən,*
*Səni görəcəyəm, ey ana Təbriz!*
*Öz ana yurdunun məhəbbətindən,*
*Nə deyim dünyada doyana, Təbriz?!.*

*Kim deyir görüşüm son görüş oldu,*
*Ömrünün baharı nə vaxtsız soldu.*
*Qəlbim həsrətindən boşaldı, doldu,*
*Ancaq baş əymədim hicrana, Təbriz!*

*Sənin hər daşında ayaq izim var,*
*O mərd vüqarında yenə gözüm var.*
*Sinəmdə çağlayan əhdim, sözüm var,*
*Ürəyim dönübdür ümmana, Təbriz!*

*Baharda baharın eşqilə yandın,*
*Uzanan yollara xeyli boylandın.*
*Sən çətin ayaqda elləri andın,*
*Gəldi geniş qəlbin tüğyana, Təbriz!*

Xalq qəzeti .- 2023.- 17 yanvar.- S.7.